# POEZİYA BUKETİ

## İnanım ya inanmayım

Çoxdan düşündürür məni bir sual,
Qədərə inanım, ya inanmayım?
Vüsalın ləzzəti şirinlikdə bal,
Həsrətə dayanım, ya dayanmayım?
Sözümün mənasın kim anlayar ki,
Yaxşı insanlara kim dünya dar ki,
Səhər yuxusundan şirin nə var ki,
Görəsən, oyanım, ya oyanmayım?
Gəzdirib xəyal tək öz qanadında,
Xoşbəxtəm kiminsə qalsam yadında.
Bir gözəl dilbərin eşqi odunda
Komradlı, de yanım, yoxsa yanmayım?

## Yaraşmır

Mənəmlikdən dəm vuranda unutma
Özün öymək ər kişiyə yaraşmır,
Əl çirkinə baxıb dosta daş atma,
Pula yatmaq nər kişiyə yaraşmır.
Dolansa da, səfil kimi ac, susuz,
Kişi gərək itirməsin çörək, duz.
Fərqi yoxdur baha oldu, ya ucuz,
Geydikləri hər kişiyə yaraşmır.
Barəsində yazsan da bir xoş əsər,
Qanmazlara vallah etməz söz əsər.
Komradlıyam, sözüm budur, müxtəsər
Yalan, böhtan, şər kişiyə yaraşmır.

**Cəlil KOMRADLI.**

## Vətən oğlu

**Vətən oğlu, yurd oğlu,**
**Qəlbin arzuyla dolu.**
**Ana vətən səsləyir,**
**Keşiyində dur oğlum.**
**Qoyma ki, sərhədləri**
**Pozub keçə bir düşmən,**
**Tərpən, ayıq ol həmən.**
**Evdə qohum-əqrəba**
**Alqış söyləyər sənə,**
**İnanar bütün el-oba.**

**Elnarə ASLAN.**

## Düzəliş

Qəzetimizin 31 avqust 2015-ci il tarixli sayında səkkizinci səhifədə **Mahmudova Səfayət Əhməd qızının** adına verilmiş elanın 1, 2-ci sətirləri aşağıdakı kimi oxunmalıdır: **Qəbələ şəhər bələdiyyəsi tərəfindən.**

## Mənim şeirim

Mənim şeirim musiqidir,
Çal, oxu onu muğam üstə.
Hər misrası, öz ahəngi
Yerindədi zili, bəmi.
Axıb gəlir səmalardan,
Sevgi verir ürəklərə,
Həyat verir diləklərə.
Mənim şeirim dağ çayıdır.
Haray salır könüllərə.
Məhəbbətlə coşur-daşır,
Məlhəm olur ürəklərə.
Oxu onu asta-asta,
Oxu onu həzin-həzin,
Qəlbindəki saf duyğular
Asta-asta dilə gəlsin.
Mən şerimi bişirirəm
Ürəyimin sobasında.
O əriyir muma dönür
Damarımın al qanında.
Hərdən uçar oxa dönür
Ürəyimin lap başında.
Hər misrası alın tərim,
Gündüzlərim, gecələrim,
Qəlbimdəki arzularım,
İstəklərim diləklərim.
Od püskürən vulkan kimi
Ürəyimi dəlib keçir.
Xoş diləkli könüllərə
Saf arzuya, saf niyyətə,
Bir sığal da çəkib keçir.
Oxu onu asta-asta,
Oxu onu aram-aram,
Oxu onu muğam üstə.
Nə diş bilsin, dodaq bilsin
Qoy ürəyin sərinləsin...

**Sədiyar SƏFƏRƏLİYEV,**
**Qəbələ şəhəri.**

***Gülxar Vəfalı (Umarova Gülxar Cəfər qızı) Mamaylı kəndində anadan olub. Orta təhsillidir. Ailəlidir. Hazırda Nohurqışlaq kəndində yaşayır. Sonsuz poeziya həvəskarıdır. O bu günlərdə ilk dəfə olaraq bir neçə şeirini redaksiyamıza təqdim etmişdir. Lirik, kövrək və həzin qəlb çırpıntıları ilə yazdığı 3 şeirini qəzetimizdə dərc edirik.***



## Qəbələ

Sıra dağlar döşündədi,
Sıx meşəlidir Qəbələ.
Yaz vaxtı tər bənövşədi,
Gül-çiləklidir Qəbələ.
Həzin nəğmə deyər çayı,
Hər kəsənin var öz payı.
Qonağının olmaz sayı,
Qonaqsevəndir Qəbələ.
Qəbələdən bax Şahdağa,
Cəl heyran ol bağça-bağa.
Şərbətindən olmaz,qağa,
Baldır, bəhməzdir Qəbələ.
Təmiz abu-havası var,
Alınası qadası var,
Gülxar kimi balası var,
Bil, bəxtəvərdir Qəbələ.

## İncimə

Desəm buğdan sürməlidi,
Samanım, məndən İncimə.
Gərdişin çox gülməlidi.
Zamanım, məndən incimə.
Sar bürüyub budaqları.
Kimdən alım bu haqları?
Qorumadın o dağları,
Dumanım, məndən incimə.
Bir deyərsən beş vuraram,
Yekin üçün şeş vuraram.
Ürəyinə şiş vuraram,
Yamanım, məndən incismə.
Bulaq suyu içməyib, sən
Gülxarla yol keçməyibsən.
Sən hamıdan inciyibsən,
Amanım, məndən incimə.

## Nə danışım?

Nə danışam vəfasızın birindən?
Məni atıb başqasına yar olmuş.
Ürəyimə yara vurub dərindən,
Bu xəyanət bütün elə çar olmuş.
Nə danışım, məni gültək soldurub,
Ürəyimə xərəklə dərd doldurub.
Öz bağçasın çiçəyini soldurub,
Başqasının bağçasına bar olmuş.
Nə danışım, getdi gəncliyim əldən,
Vaxt var idi seçilməzdim tər güldən.
Soruşuram hər çiçəkdən, hər güldən,
Gülər deyir: sənsiz tarı-mar olmuş.
Özünə də qismət olmayıb vəfa,
Başqasından vəfa umub bivəfa.
Məni unudub indi çəkir cəfa,
Hamar yolu duman olmuş, qar olmuş.
Gülxar, yığma qəm yükünü qəlbinə.
Səni qıran br gün düşər qəddinə.
Hamı heyran oldu sənin səbrinə,
Səbrin pozulmayan bir ilqar olmuş.

## ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 25 iyun 1998-ci il tarixli 11 saylı qərarla Bum kənd sakini **Məsimov Ağalar Osman oğlunun** adına verilmiş JN 443 A №-li (kodu 40800038) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən Mıxlıqovaq kənd sakini **Muradov Mübariz Mayıl oğlunun** adına verilmiş JN 712 nömrəli (kodu 40614018) **Torpağın mülkiyyət hüqüquna dair Dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 28 oktyabr 1998-ci il tarixdə 19 saylı qərarla Vəndam qəsəbə sakini **Əhmədov Əhmədiyyə Səmid oğlunun** adına verilmiş JN 1318 A nömrəli (kodu 40600048) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Aqrar İslahat Komissiyası tərəfindən 26 fevral 2001-ci il tarixdə 03 saylı qərarla Qəbələ şəhər sakini **Mustafayev Vahab İsa oğlunun** adına verilmiş JN 463F nömrəli (kodu 40601004) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Polis Şöbəsi tərəfindən Qəbələ-2A Vasilyev küçəsi, ev № 74, mənzil 47-də yaşayan **Sadıqova Səbinə Tahir qızına** verilmiş seriya AZE 08262979 №-li **Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

*Məsul katib*
*N. R. Atakişiyev.*

*TƏSİSÇİLƏR:*
**Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.**
*Məsul növbətçi:*
*A. C. Cəlilov.*

**ÜNVANIMIZ:**
**AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.**
**Redaktor: (024)20 5-19-14.**
**Ümumi: (024)20 5-15-56.**
**e-mail: gabalanews@mail.ru**

**Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611**
**«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601**

**Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir. Tiraj 2300.**
**Oxucu məktubları geri qaytarılmır.**